Yeni Azərbaycan Partiyası — 30

# Azərbaycanın müasir tarixinin möhtəşəm siyasi qüvvəsi



**“Nə qədər ki, Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam”. Müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyev bu fikirləri ilə dövlətimizin, xalqımızın taleyinə necə dərindən və əbədi bağlı olduğunu ifadə etmişdi. Qədimdən-qədim Azərbaycanı yenidən quran, öz adını isə tarixə dövlət müstəqilliyimizin xilaskarı kimi qızıl hərflərlə yazan ümummilli liderin tarixi xidmətlərindən bəhs edərkən bu günlərdə 30 illik yubileyi şəhər və rayonlarımızda ümumxalq təntənəsi ilə qeyd edilən Yeni Azərbaycan Partiyasının yaradılmasından ayrıca söhbət açılır.**

30 il əvvəl çətin günlərini yaşayan Azərbaycanda bu partiyanın yaradılması ölkəmizin həyatını çuğlamış məhvedici böhrandan yaxa qurtarmaq üçün dönüş nöqtəsi olmuşdu. Belə önəmli hadisələr onunla bağlı keçilən yolun təhlilini bir zərurət kimi ortaya qoyur. Yeni Azərbaycan Partiyasının yaradılmasının özü də tarixi zərurətdən və xalqın qarşısıalınmaz istəyindən qaynaqlanmışdı.

O zaman YAP-ın təsis olunmasını zəruri edən məqamlara nəzər salaq. Azərbaycan 18 oktyabr 1991-ci ildə dövlət müstəqilliyini yenidən bərpa etmişdi. Müstəqilliyimizin bərpasının ilk addımlarında ölkəyə idarəçilik qabiliyyəti olmayan, səriştəsiz ünsürlərin rəhbərliyi xalqı çətin duruma salmışdı. Xaos, anarxiya, özbaşınalıq, iqtisadi böhran həmin dövrün səciyyəvi xüsusiyyətləri idi.

Digər tərəfdən də ordu quruculuğunda uğursuzluqlar torpaqlarımızın işğalına yol açmışdı. Bir sözlə, ölkədə hakimiyyətsizlik hökm sürürdü. Dövlətin maraqlarını arxa plana keçirib şəxsi ambisiyaları uğrunda mübarizə aparan AXC–Müsavat cütlüyünün birillik hakimiyyəti dövlətimizə, xalqımıza facie və fəlakət gətirmişdi. Azərbaycan müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalmışdı. Bu gün ölkəmizin ictimai-siyasi həyatında aparıcı rol oynayan, xalqın partiyası kimi nüfuz qazanan, ulu öndər Heydər Əliyevin adı ilə bağlı olan Yeni Azərbaycan Partiyası belə çətin məqamda yaradılmışdı.

O zaman xalqın böyük əksəriyyətinin istəyini ifadə edən 91 nəfər ziyalının ulu öndərə müraciətində zamanın sosial sifarişi öz əksini tapmışdı: “Bizim bu müraciətimizə minlərlə Azərbaycan vətəndaşı məmnuniyyətlə qoşulmağa hazırdır. Biz həm öz, həm də respublika əhalisi adından Sizdən xahiş edirik ki, yaradılmaqda olan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir.” Tarixə “91-lərin müraciəti” adı ilə düşmüş bu məktuba ulu öndər Heydər Əliyevin müsbət cavabı Azərbaycanın bugünkü uğurlarının və möhtəşəm gələcəyinin əsası olmuşdu.

Dahi şəxsiyyətin yeni ümumxalq partiyasının yaradılmasına razılığı, bu təşkilatın fəaliyyətinə rəhbərlik etməyə hazır olduğunu bildirməsi ölkənin yaxınlaşan fəlakətdən xilası yolunda atılan zəruri addım olmuşdu. Azərbaycanın dövlət müstəqilliyini tarixi nailiyyətimiz kimi dəyərləndirən ulu öndər Heydər Əliyev müraciətə cavabında vəziyyətdən çıxış yollarını göstərmişdi: “İndi əsas vəzifə dövlətçiliyin, müstəqilliyin bərqərar olunmasını, milli-demokratik dövlətin formalaşmasını, müstəqil Azərbaycanın suverenliyini, təhlükəsizliyini təmin etmək və vətəndaşlara azad, xoşbəxt, firavan həyat şəraiti yaratmaqdan ibarətdir. Bu xeyirxah və şərəfli işə hər bir vətənpərvər layiqli töhfəsini verməlidir.”

Bu mötəbər və sabaha ümid dolu açıqlamada əksini tapan müddəalar müstəqilliyimizin möhkəmləndirilməsinə, Azərbaycanın varlığına və gələcəkdə dünya birliyinin fəal üzvünə çevrilməsinə inamlı çağırış idi. Təbii ki, bu çağırışlar ümummilli liderin Vətənini, xalqını canından artıq sevməsindən, doğma xalqının gələcəyi barədə dərin məsuliyyətlə düşünməsindən irəli gəlirdi. Təsadüfi deyil ki, bu gün həqiqi xalq partiyası kimi tanınan Yeni Azərbaycan Partiyası ulu öndərin bu mükəmməl təfsirində cəmiyyətin başlıca istəklərini, arzularını, hədəflərini təcəssüm etdirirdi.

Yeni Azərbaycan Partiyasının yaradılması ölkəmizin həyatında yeni mərhələyə yol açdı. “Müstəqillik tariximiz məhz ondan başladı, 1991-ci ilin oktyabrından yox”, – deyən ulu öndərin ən layiqli davamçısı, YAP Sədri, dövlət başçısı İlham Əliyev partiyanın Zəfər ruhlu VII qurultayındakı proqram xarakterli çıxışında dövlətçiliyimizin bərpa edilib möhkəmləndirilməsində YAP-ın o zaman oynadığı rolu aydın və dəqiq ifadə etmişdir.

Ümummilli lider xilaskarlıq missiyasına başlayana qədər müstəqillik yalnız sözdə idi. Prezident İlham Əliyevin dediyi kimi: “Azərbaycan müstəqil siyasət apara bilirdi?– Yox! Öz hüdudlarını qoruya bilirdi?– Yox! Beynəlxalq aləmdə öz sözünü deyə bilirdi?– Yox! Bəs bu, nə müstəqillikdir? Əgər Heydər Əliyev o vaxt hakimiyyətə gəlməsəydi, bu gün Azərbaycan bəlkə də ancaq kiminsə əlinin altında bir oyuncaq dövlət kimi, bir yarımmüstəmləkə kimi yaşaya bilərdi.”

Ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycanın, Yeni Azərbaycan Partiyasının həyatında əsaslı dəyişikliklərə geniş meydan açdı. Ümummilli lider uğurlu daxili və xarici siyasəti ilə, ilk növbədə, ölkədə siyasi sabitlik yaratdı. Xalqın mütləq çoxluğunun etimadı ilə müstəqil dövlətin ilk həqiqi Prezidenti seçilmiş Heydər Əliyevin gərgin səyləri nəticəsində 1994-cü il mayın 12-də cəbhə xəttində atəşkəs sazişinin imzalanması həm ölkədə sabitliyin yaradılmasına, həm də digər sahələrdə uğurlu addımların atılmasına yol açdı.

Yeni Azərbaycan Partiyasının 2022-ci ilin payızında qazandığımız tarixi Zəfərin reallıqları şəraitində keçirilən VII Qurultayında son prezident seçkilərindən sonra Azərbaycanın qazandığı uğurlardan bəhs edən Prezident İlham Əliyev bildirdi ki, onların arasında ən önəmlisi ərazi bütövlüyümüzün bərpa edilməsi, Vətən müharibəsində parlaq Qələbənin qazanılmasıdır. Azərbaycan Vətən müharibəsi yolu ilə ərazi bütövlüyünü, tarixi ədaləti bərpa etdi, işğalçıları əzəli torpaqlarımızdan qovdu. Bizim şanlı Qələbəmiz qürur mənbəyimizdir.

Partiyamızın yaradıcısı, ümummilli lider Heydər Əliyevin məslək və əməl yolu qalib Azərbaycana daha möhtəşəm uğurlar qazandıracaq. Yeni Azərbaycan Partiyasının 800 minə yaxın üzvünün hər biri bu uğurların işığında ulu öndər Heydər Əliyevin ideyalarının, dövlət başçısı, YAP Sədri İlham Əliyevin daim yeniləşən, təkmilləşən siyasətinin təbliğatçısı olmaqdan qürur hissi keçirir.

**Fəxrəddin VƏLİYEV,**
**YAP Şəmkir rayon təşkilatının sədri**